*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 avqust 2016-cı il № 63 (2078) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 14-də Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



Dövlətimizin başçısı Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana son səfərinin uğurla keçdiyini vurğulayaraq səfər zamanı Azərbaycan və Rusiya prezidentlərinin görüşündə əlaqələrimizin geniş spektrini əhatə edən sahələrlə bağlı müzakirələr aparıldığını, o cümlədən hərbi və hərbi-texniki əməkdaşlığın uğurla reallaşdığını bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, iki ölkənin dövlət başçılarının görüşü zamanı Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin yüksək səviyyədə olmasının əlaqələrimizin müxtəlif sahələrini əhatə edən məsələlərin, həmçinin regional təhlükəsizlik məsələlərinin həllinə imkan verəcəyi qeyd olunmuşdu.

Dövlətimizin başçısı dedi ki, bu yaxınlarda Rusiyada keçirilən Beynəlxalq Ordu Oyunlarında Azərbaycan komandasının ilk dəfə çıxış etməsini nəzərə alsaq, nəticəni uğurlu hesab etmək olar. Azərbaycan Prezidenti Rusiya komandasının həmin oyunlarda qələbəsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev Rusiya Müdafiə nazirinin Azərbaycana səfərinin hərbi və hərbi-texniki sahədə əməkdaşlığımızın perspektivləri ilə bağlı səmərəli müzakirələrin aparılması işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Rusiyanın Müdafiə naziri Sergey Şoyqu Prezident Vladimir Putinin Azərbaycana səfərinin və səfər zamanı Prezident İlham Əliyev ilə keçirdiyi görüşlərin ikitərəfli münasibətlərin, o cümlədən hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından önəmini vurğuladı.

Sergey Şoyqu Azərbaycan Silahlı Qüvvələri nümayəndələrinin Rusiyada keçirilən Beynəlxalq Hərbi Oyunlarda fəal iştirakını məmnunluqla qeyd etdi.

**AZƏRTAC**

## Rusiyanın Müdafiə naziri Heydər Əliyev Mərkəzi ilə tanış olub

***Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyəti avqustun 15-də Heydər Əliyev Mərkəzində olub.***

AZƏRTAC xəbər verir ki, Mərkəzin direktoru Anar Ələkbərov Sergey Şoyquya Heydər Əliyev Mərkəzinin dünya memarlığının nadir incilərindən hesab olunan binası və qurumun fəaliyyəti haqqında məlumat verib. Qeyd edilib ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının, ulu öndərin irsinin dərindən öyrənilməsinə və tədqiqinə yönəlib. Bundan başqa, Mərkəz Azərbaycan xalqının tarixi, dili, mədəniyyəti və digər milli sərvətlərinin beynəlxalq arenada populyarlaşmasına və təbliğinə, elmin dəstəklənməsinə və inkişafına, təhsilə, mədəniyyətə, səhiyyəyə, idmana, ekologiyaya və iqtisadiyyatın müxtəlif sahələrinə xidmət edən layihələr həyata keçirir.

Diqqətə çatdırılıb ki, məşhur memar Zaha Hadidin layihəsi əsasında tikilmiş Mərkəz dünya memarlığı siyahısına daxil edilib. Burada, həmçinin yerli, regional və beynəlxalq səviyyədə müxtəlif rəsmi qəbullar, konfranslar və digər tədbirlər keçirilir.

Mərkəzdə yaradılan Heydər Əliyev Muzeyi qonaqlarda böyük maraq doğurub. Muzeyin "Fotolarda əks olunmuş həyat", "Azərbaycanın ictimai-siyasi həyatı", "Dövlətçilik, irs və nailiyyətlər" bölmələrində ulu öndərin həm sovet dövründə, həm də müstəqillik illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual formada təqdim olunur.

Nümayəndə heyətinin üzvləri Mərkəzdə, həmçinin "Azərbaycan inciləri" sərgisi ilə tanış olublar. Məlumat verilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətlərini, çoxəsrlik tarixini, mədəni irsini əks etdirən nadir eksponatlar nümayiş olunur. Sərgidə qədim sənətlərin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri yer alıb. Buradakı mis məmulatlar xüsusi maraq doğurur. Azərbaycanın qədim musiqi alətləri orijinal formada - səsli təqdim olunur. Azərbaycanın milli geyimlərinin, qədim sikkələrinin nümayiş olunduğu ekspozisiyada qonaqların diqqətinə müxtəlif dillərdə müqəddəs kitablar da çatdırılıb.

Nümayəndə heyəti, həmçinin "Mini Azərbaycan" sərgisi və Mərkəzin "Auditorium" zalı ilə tanış olub.

Daha sonra qonaqlara Mərkəzdə nümayiş etdirilən "Klassik avtomobil sərgisi" barədə məlumat verilib.



"Qarşıda bizi böyük sınaq gözləyir"

3-cü səhifədə



Silahlı Qüvvələrimizin hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib

4-cü səhifədə



Azərbaycan tankçıları hərbçilərin beynəlxalq yarışlarında uğurla çıxış ediblər

6-cı səhifədə



Jurnalistlərin təlimi

7-ci səhifədə

# Müdafiə naziri hərbçilərin beynəlxalq yarışlarının bağlanış mərasimində iştirak edib





Moskva şəhərində işgüzar səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov avqustun 13-də Alabino poliqonunda təşkil edilən "Beynəlxalq Ordu Oyunları - 2016" yarışlarının təntənəli bağlanış mərasimində iştirak edib.

Yarışların son günü rəsmi qonaqlar final mərhələsinə çıxmış komandaların mübarizəsini izləyib və 23 nominasiya üzrə müxtəlif müsabiqələrdə qalib gəlmiş hərbi qulluqçuların mükafatlandırılmasında iştirak ediblər.

Müdafiə naziri tankçılarımızla görüşərək onların ilk dəfə olaraq belə bir mötəbər yarışda iştirak edərək Azərbaycanı layiqincə təmsil etdiklərini xüsusi vurğulayıb və onlara xidmətlərində uğurlar arzulayıb.

"Beynəlxalq Ordu Oyunları - 2016" yarışlarının təntənəli bağlanış mərasimi bayram konserti ilə sona çatıb.

Qeyd edək ki, iyulun 30-dan başlayan hərbçilərin beynəlxalq yarışlarının "Tank biatlonu" və "Xəzər kuboku" müsabiqələrində iştirak edən Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri hər iki nominasiyada müxtəlif mərhələlərdə qaliblər sırasında olmaqla ölkəmizi yüksək səviyyədə təmsil ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Respublikasının Müdafiə naziri rusiyalı həmkarı ilə görüşüb

***Avqustun 15-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqu ilə görüşüb.***



Rusiya Federasiyasının Müdafiə Nazirliyinin nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın, sonra isə Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Qarşılanma mərasimindən sonra ordu generalı S.Şoyqu Silahlı Qüvvələrin Baş Qərargahının binasında ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən muzeyi ziyarət edib.

Hər iki ölkənin Müdafiə nazirləri arasında geniş tərkibdə keçirilən görüşdə qonaqları salamlayan general-polkovnik Z.Həsənov Azərbaycan ilə Rusiya arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin görüşlərinin mühüm rol oynadığını, əməkdaşlığın dostluq münasibətləri, qarşılıqlı inam üzərində qurulduğunu və bu əlaqələrin daim inkişaf etdiyini xüsusi qeyd edib.

Ənənəvi "Beynəlxalq Ordu Oyunları - 2016" yarışlarına uğurla ev sahibliyi etdiyinə görə rusiyalı həmkarını təbrik edən Azərbaycanın Müdafiə naziri Silahlı Qüvvələrimizin hərbi qulluqçularının bundan sonra da bu mötəbər müsabiqədə iştirak edərək peşəkarlıqlarının artırılmasının zəruriliyini bildirib.

Müdafiə naziri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində ərazilərimizin işğal olunması faktını, bunun nəticəsində doğma ocaqlarından didərgin salınmış qaçqın və məcburi köçkün soydaşlarımızın mövcudluğu problemini də qonaqların diqqətinə çatdırıb.

Ordu generalı S.Şoyqu öz növbəsində dövlətlərimizin əlaqələrinin möhkəm dostluq münasibətlərinə əsaslandığını, Rusiyanın Azərbaycanın vacib tərəfdaşı olduğunu qeyd edərək bu cür görüşlərin ikitərəfli münasibətlərin, eləcə də hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından zəruriliyini bir daha vurğulayıb.

Sonra tərəflər hərbi sahədə əməkdaşlığın mövcud vəziyyəti, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əlaqələrin inkişaf perspektivlərini müzakirə ediblər.

Nazirlər beynəlxalq və regional təhlükəsizlik problemləri, Xəzər dənizində hərbi əməkdaşlıq, o cümlədən birgə hərbi təlimlərin keçirilməsi, təcrübə mübadiləsi məqsədilə mütəxəssislərdən ibarət heyətlərin qarşılıqlı səfərlərinin təşkili və maraq doğuran digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Beynəlxalq sülhməramlı əməliyyatlarda maddi-texniki təminat mövzusunda seminar keçirilir

Amerika Birləşmiş Ştatlarının Oklahoma Milli Qvardiyasının Mobil Təlim Qrupu tərəfindən "Beynəlxalq sülhməramlı əməliyyatlarda maddi-texniki təminat üzrə tələbatlar" mövzusunda seminar keçirilir.

Tədbirin məqsədi Azərbaycan zabitlərini beynəlxalq sülhməramlı əməliyyatlarda NATO kontingentlərinin qarşılaşdığı maddi-texniki təminat tələbatları və qarşıda duran çağırışlarla bağlı məlumatlandırmaqdan ibarətdir.

Seminar müddətində Mobil Təlim Qrupu tərəfindən ABŞ və NATO-da tətbiq olunan maddi-texniki təminat şəbəkəsi (MTT) sistemləri, əməliyyat zonasına çıxmamışdan əvvəl MTT ilə bağlı hazırlıq tapşırıqları, NATO kontingentinin əməliyyat zonasına çıxışı zamanı çoxeşelonlu MTT dəstəyinin tələbatları, NATO çevik həmlə qüvvələrinin əməliyyat zonasına çıxışının planlaşdırılmasında qarşıda duran məsələlər və digər mövzularla bağlı məlumatlar verilərək müzakirələr aparılacaqdır.

Seminar avqustun 19-dək davam edəcəkdir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 17-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Ağstafa rayonunun Tatlı kəndi sahəsində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Saymon Tiller keçirəcəklər.

Ermənistan tərəfindən isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi səfir Anjey Kaspşik və onun səhra köməkçiləri Jiri Aberle və Piter Şvedberq keçirəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***16 avqust 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 16 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun işğal olunmuş Horadiz, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Gənc zabitlərimiz*

# "Zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biridir"



*Ümummilli lider Heydər Əliyevin yüksək diqqət və qayğı göstərdiyi sahələrdən biri də ordu quruculuğu idi. O, hakimiyyətinin bütün dövrlərində gənclərimizdə hərb peşəsinə marağın gücləndirilməsi işinə ciddi diqqət yetirərək "zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biridir" demişdi. Zabit peşəsi, doğrudan da, ən müqəddəs və vacib peşələrdən biridir. Çünki bu peşənin sahibləri Vətən qoruyucularıdır.*

Əslən Beyləqan rayonundan olan leytenant Mahir Dadaşzadə bu müqəddəs peşəyə yiyələnən gənclərimizdəndir. Onu xidmət yerində, Daşkəsən rayonunu boydan-boya əhatə edən dağların zirvələrində tanıdım. Mahir üç min metrdən çox yüksəklikdə yerləşən döyüş postunda xidmət edir. Hərb peşəsinə olan sevgisi 15 yaşı olarkən ona hərbi formanın sevincini yaşadıb. 2007-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini müvəffəqiyyətlə bitirib. 2015-ci ildə bu bölmədə taqım komandiri kimi xidmətə başlayıb. Gənc zabiti daha yaxından tanımaq üçün onunla həmsöhbət oluram.

- Atam müharibə veteranıdır, - leytenant deyir. - Qarabağ döyüşlərinin iştirakçısı olub. Uşaqlığımdan mənə döyüşlərdən söz açıb, ermənilərin xalqımızın başına açdığı faciələrdən danışıb. Elə o vaxtdan məndə düşmənə qarşı nifrət hissi oyanmışdı. Gələcəkdə hərbçi olmaq arzusu ilə ürəyim döyünürdü. Və bir dəfə atamla C.Naxçıvanski adına Hərbi Liseydə təhsil alan əmioğlunun görüşünə getmişdik. Kursantlarla görüşüm bu peşəyə sevgimi daha da artırdı. Qərarımı verdim: "ata, mən də hərbçi olacam!". Bu seçimimə hamıdan çox sevinən isə atam idi. Bu gün çox xoşbəxtəm ki, arzuma çatmışam. Çiyinlərimdə leytenant rütbəsi müqəddəs vəzifəni icra edirəm, - Vətənimi qoruyuram!

Danışdıqca simasında əks olunan sevinc və həyəcan, qürurlu baxışları gənc zabitimizin peşəsinə sonsuz sevgi ilə bağlandığını büruzə verirdi.

Leytenant düşüncələrinə dalıb deyir ki, hərbi liseydə "Şərəf andı" içdiyi günü heç vaxt unutmayacaq. "Andiçmədən sonra təntənəli marşla valideynlərimizin qarşısından keçdik. Onların qürurlu baxışlarını hiss etdikcə seçdiyim peşənin müqədəssliyini dərk edir, ordumuzla qürur duyurdum. Tədbirdən sonra atamın dediyi "komandirlərinin sözündən çıxma, nizamnamənin tələblərini pozma, Vətəninə layiqli zabit ol" sözlərini yaddaşıma həkk edərək Azərbaycan Ordusunda nümunəvi zabit olacağıma söz verdim.

- Mahir, hərb peşəsi şərəfli olduğu qədər də çətin peşədir. Bu peşənin məsuliyyətini necə hiss edirsən?

- Həyatda asan peşə yoxdur. Əgər bir işdə uğur qazanmaq, seçdiyin sənətin peşəkarı olmaq istəyirsənsə, hər çətinliyinə də dözməlisən. Bəli, hərb peşəsi çətin və məsuliyyətli peşədir. Hərbi forma daşıyan hər kəs bu peşənin çətinliyini dərk edir. Biz burada 3 min metrdən çox yüksəklikdə xidmət edirik. Sevdiklərimizdən uzaqda olmağın, həmçinin hava şəraitinin yaratdığı çətinliklərlə üzləşirik. Bunlara baxmayaraq peşəmizi sevirik. Bu peşənin müqəddəsliyi ondadır ki, xalq sənə güvənir, arxalanır. Ona görə də qar, yağış, boran demədən Vətənə xidmət edirsən.

Mahirin gənc zabit olmasına baxmayaraq kifayət qədər bacarıqlı və savadlı olduğu hiss olunur. Tabeliyində olan əsgərlərin nizam-intizamı, səliqəli olmaları onun öz vəzifəsinin öhdəsindən bacarıqla gəldiyini deməyə əsas verir.

- Təcrübəli zabitlərimiz kapitan İlham Əliyev, baş leytenant Cavidan Əsədov və başqaları daim mənə kömək göstərir, öz təcrübələrini bölüşürlər, - deyə müsahibim bildirir. - Əsgərləri



Vətənimizə sədaqətlə xidmət edən döyüşçülər kimi yetişdirmək üçün əlimdən gələni əsirgəmirəm. Əsas vəzifələrimdən biri də tabeyimdəki şəxsi heyəti yüksək döyüş ruhunda tərbiyə etməkdir. Bunun üçün onlarla tariximiz, Milli Qəhrəmanlarımız haqqında söhbətlər aparıram. Əsgərlər "komandir, biz Vətən naminə ölmək yox, öldürmək üçün döyüşməyə hazırıq" deyirlər. Aprel döyüşlərindəki qələbəmiz xalqın orduya güvənc hissini daha da artırdı. Bu gün hər birimiz Ali Baş Komandanın döyüş əmrinə hər an hazırıq və qələbə qazanmağa tam əminik.

Leytenant Mahir Dadaşzadə ilə söhbətim məndə xoş təəssüratlar oyatdı. Onun hərbi peşəyə sevgisi və bağlılığı hər kəlməsindən hiss olunurdu. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tədbirlərin birində dediyi "Silahlı Qüvvələrin hər bir hərbi qulluqçusu Vətənə, xalqa, dövlətə xidmət bizim ömrümüzün mənasıdır - devizini dərk etməli, bu amalla yaşamalı və vicdanla xidmət etməlidir" sözləri yadıma düşür. İnanıram ki, Mahir də Silahlı Qüvvələrimizin ən layiqli zabitləri sırasında yer tutacaq.

**Mahmud MÖHBALIYEV, "Azərbaycan Ordusu", fotolar müəllifindir**

*Nümunəvi xidmət*

# "Qarşıda bizi böyük sınaq gözləyir"

"Vətənpərvərlik" məfhumu məzmun etibarilə çoxşaxəlidir, insanlarda erkən yaşlarından formalaşır. İnsan dünyanı dərk etdikcə, Vətəninə, torpağına bağlanır, bir sözlə, vətənpərvərlik hissləri güclənir. Bu hiss öz dövlətinin tərəqqisi üçün can yandırmaq, doğma xalqının tarixi və mədəniyyəti ilə fəxr etmək, Vətənin rifahı, gələcəyi naminə əlindən gələni əsirgəməmək, Vətən uğrunda canından belə keçməyə hazır olmaq deməkdir. Danılmaz faktdır ki, bu gün Azərbaycanda bütün bu hissləri özündə ehtiva edən gənclik formalaşıb. Bu gənclik doğulub böyüdüyü ana torpağı sevir, onu düşmənlərdən qorumağı özünün ən ümdə vəzifəsi hesab edir. Azərbaycan Ordusu belə vətənsevər gənclikdən formalaşır, möhkəmlənir və günü-gündən daha da qüdrətlənir.

Vətənə xidmət etmək hər kəsin müqəddəs borcudur. Bu şərəfli borcu fədakarlıqla yerinə yetirmək üçün Azərbaycan əsgəri üzərinə düşən vəzifələrə məsuliyyətlə yanaşır. Gənclərimiz ordu sıralarına böyük həvəslə gəlir, Vətənə ləyaqətlə xidmət edir, içdikləri hərbi anda sadiq olduqlarını sübut edirlər. Belə vətənpərvər gənclərdən biri də əsgər Mehman Şirinovdu. O, Ağcabədi rayonunun Arazbar kəndində dünyaya göz açıb. İllərdir torpaqlarımızda müharibə getdiyini, erməni quldurları tərəfindən 20 faiz ərazilərimizin işğal olunduğunu Mehman da dərindən dərk edir. Ağcabədili gənc hazırda düşmənlə üzbəüz mövqedə xidmət edir. Elə onunla söhbətimizi də döyüş növbəsində qələmə alırıq. Burada Mehmanın necə ayıq-sayıqlıqla və dəqiqliklə düşməni



izlədiyini, bütün diqqətini müşahidə zolağında cəmləşdirdiyini görmüşdüm.

- Biz döyüşə hər an hazır olmalıyıq, - deyir. - Təlimlərdə hərbi texnika və silahların döyüş xüsusiyyətlərini mükəmməl mənimsəyirik. Hərbi xidmətə gələndə tam əmin idim ki, elimə, obama layiqli oğul, Vətənim Azərbaycanın sadiq əsgərlərindən biri olacam. Çünki orta məktəb illərindən hərbi dərslərə böyük maraq göstərirdim. Silahları söküb yığmağı, hədəflərə atəş açmağı həmişə öyrənməyə çalışırdım. Bütün bunlar hərbi xidmətin ilk çətinliklərinə alışmağıma kömək etdi. Komandirlərimin əmr və tövsiyələrinə əməl edərək qısa vaxtda hərbi bilik və vərdişlərə yiyələndim. Yaxşı bilirik ki, hazırlığımız nə qədər yüksək olarsa, döyüşdə də qələbə bizim olar. Torpağımıza ayıq-sayıq keşik çəkmək, düşmənə aman verməmək ən əsas vəzifəmizdir. Düşmənə nifrətim sonsuzdur. Nə qədər ki, torpaqlarımızı işğal altında saxlayıblar, hər dəqiqə, hər an barmağım silahın tətiyində olacaqdır.

Öyrənirəm ki, Mehmanın şəkli nümunəvi əsgər olduğuna görə bölüyün şərəf lövhəsində vurulub. Hərbi hissənin komandanlığı da vətənpərvər əsgərin valideynlərinə təşəkkür məktubu göndərib. Həyatda valideynlərinə, xidmətdə isə komandirlərinə baş ucalığı gətirən Mehmanın ən böyük arzusu Ağcabədiyə qələbə müjdəsi ilə qayıtmaqdır.

**Lalə HÜSEYNOVA, "Azərbaycan Ordusu", foto M.MÖHBALIYEVİNDİR**

AZƏRBAYCAN ORDUSU

# Silahlı Qüvvələrimizin hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib

***Avqustun 14-də Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Silahlı Qüvvələrin birlikləri, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava və Hərbi Dəniz Qüvvələrinin hərbi hissələrində təşkil edilmiş mərasimlərdə öncə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Döyüş bayrağı sıra meydanına gətirilərək Dövlət himni ifa edilib. Sonra gənc əsgərlər təntənəli surətdə hərbi andı qəbul ediblər.***





... Həmin gün cəbhə xəttindəki "N" hərbi hissəsinin meydanında böyük izdiham vardı. Gənc əsgərlərin hərbi andiçmə mərasiminin canlı iştirakçısı olmaq istəyən minlərlə insan yaxın-uzaq bölgələrdən buraya təşrif gətirmişdi.

... Təyin olunan vaxtda tribunanın qarşısındakı zabitin amiranə səsi hamının diqqətini bir nöqtəyə yönəltdi. Gənc əsgərlərin hərbi andı qəbul etməyə hazır olması barədə general-mayor Hikmət Həsənova məruzə olundu.

Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbani çıxış edərək Müdafiə naziri general-polkovnik Zakir Həsənovun gənc əsgərlərə və onların valideynlərinə təbrikini çatdırdı. O, hərbi hissənin şərəfli döyüş yolundan danışaraq bildirdi ki, bu hərbi hissənin şəxsi heyəti Ağdərə Murovdağ, Goranboy uğrunda döyüşlərdə iştirak edib. "Hərbi hissənin şəxsi heyəti arasından üç Milli Qəhrəman çıxmış, onlarla hərbi qulluqçu Vətənin yüksək orden və medallarına layiq görülmüşdür. Torpaqlarımızın müdafiəsi yolunda iki yüz nəfərə qədər şəhid vermiş hərbi hissə hazırda da öz yüksək döyüş hazırlığına görə seçilən hərbi hissələrdən biridir. Onun şəxsi heyəti Ali Baş Komandanın hər an verə biləcəyi əmri layiqincə yerinə yetirməyə tam hazırdır."

General-mayor Hikmət Həsənov da hərbi and içən əsgərləri və onların valideynlərini təbrik edərək bildirdi ki, Azərbaycanda ordu quruculuğu daim dövlətin diqqət yetirdiyi prioritet məsələlərdən biridir. "Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev daim bu prosesi yaxından izləyir, ordu quruculuğuna qayğı göstərir. Məhz bunun nəticəsidir ki, regionda Azərbaycan ordusundan güclü ordu yoxdur. Silahlı Qüvvələrimizin döyüş hazırlığının yüksəldilməsi daim diqqət mərkəzindədir."

Sonra gənc əsgərlər hərbi andı qəbul etdilər. Onlar Vətənə, dövlətə sədaqətlə xidmət edəcəklərinə, Ali Baş Komandanın əmrini layiqincə yerinə yetirəcəklərinə söz verdilər. Bu məqamda gənc əsgərlərin qürurverici, əzəmətli görkəmi sanki bir vaxtlar bölgədə gedən döyüşlərə şahidlik etmiş dağların əzəmət və vüqarlı duruşunu xatırladırdı.



Gənc əsgərlər adından çıxış edən, əslən Cəbrayıldan olan Samir Sevdimalıyev onlara bəslənən yüksək etimadı doğruldacaqlarına, torpaqlarımızın işğaldan azad edilməsində yaxından iştirak edəcəklərinə söz verdi.

Sonra ölkəmizdən kənarda yaşayan soydaşlarımız adından çıxış edən, Sankt-Peterburqdan gəlmiş Bağman Hüseynov, həmçinin Salyan rayon sakini əsgər Nağızadənin atası və başqaları ordumuzun Vətənin müdafiəsi naminə hər an döyüşməyə hazır olmalarına əmin olduqlarını bildirərək Azərbaycan Silahlı Qüvvələrinin gücünə dərindən inandıqlarını söylədilər.

...Həmin gün hərbi hissədə əsgər valideynlərinin öz övladları ilə görüşü ordu ilə xalqın monolit birliyinin əsl nümayişinə çevrildi.

* * *

Silahlı Qüvvələrimizin fəaliyyətində gənc əsgərlərimizin hərbi andı qəbul etmə mərasimi xüsusi önəm daşıyır. Bütün qoşun növlərinə məxsus hərbi hissələrimizdə eyni günə təyin edilən və təbii olaraq təmtəraqla keçirilən tədbir təkcə ordu sıralarında ilk addımlarını atan gənclərin əsgəri həyatında ən yaddaqalan hadisə deyil. Eyni zamanda ordunun şəxsi heyəti, eləcə də valideynlər üçün unudulmaz mərasimdir.

Ötən bazar günü yenə Silahlı Qüvvələrimizin hərbi hissələrində bayram əhval-ruhiyyəsi vardı və çoxsaylı valideynlərin, gənc əsgərlərin yaxınlarının səhərin erkən çağlarından hərbi hissələrə üz tutması bu ovqatı daha da artırırdı. Qələbəliyin əsas səbəbi isə ordu sıralarına çağırılmış gənc əsgərlərin təntənəli surətdə Vətənə sədaqət andını qəbul etməsi idi.

"N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsinin qarşısına Azərbaycanın müxtəlif bölgələrindən xeyli adam toplaşmışdı.

Budur, hərbi qulluqçular üçün hazırlıq komandası verilir. Polkovnik-leytenant Ədalət Hacıyev məruzə etdikdən sonra polkovnik Qiyas Nəsibov şəxsi heyəti əlamətdar hadisə münasibətilə təbrik edir.

Hər bir hərbi kollektivin şərəf və ləyaqətini göstərən onun döyüş bayrağıdır. Bütün mərasimlərdə döyüş bayrağının meydana gətirilməsi ənənə halını alıb. Hərbi hissənin gənc əsgərlərinin andiçmə mərasimində də belə oldu. Öncə bayraqdarlar şərəf və qürur rəmzini hərbi orkestrin ifa etdiyi marşın sədaları altında meydana gətirdilər.

Sonra gənc əsgərlərin andiçmə mərasimi başlanır. Onlar mətin addımlarla meydançanın ortasında düzülmüş və üstünə atıcı silahlar qoyulmuş stolların ətrafına keçirlər. Çiyin-çiyinə vermiş Vətən oğulları valideynləri və komandirləri qarşısında təntənəli surətdə Hərbi andın mətnini ucadan səsləndirirlər. Bununla da onlar doğma Azərbaycanımıza sədaqətli və onun uğrunda canlarından belə keçməyə hazır olacaqlarına söz verirlər.

Yaşı çatanda hər kəs ordu sıralarına yollanıb Vətənin keşiyində dayanmalı, anasını qoruduğu kimi, qoyunun böyüdüyü torpağı müdafiə etməlidir. Əslində hərbi xidmətə gedərkən Vətənə sədaqətlə xidmət etmək barədə and içmək özü də kişilik əlamətidir.

- Hərbi hissəmizə qəbul edildikləri andan gənc əsgərlərlə lazımi iş aparmışıq və onları hərbi xidmətə hazırlamağa çalışmışıq, - zabit Əbülfət Xəlilov deyir. - Onlarla fərdi söhbətlər aparılıb, bu gənclərin hansı duyğular keçirdiyi, onların ailə vəziyyəti və problemləri zabitlər tərəfindən öyrənilib. Bu, gənc əsgərlərin fərdi xüsusiyyətlərinin, ovqat və istəklərinin xidmət prosesində nəzərə alınması üçün zəruri addım kimi dəyərləndirilir. Onların hər biri Vətənə xidmət etməyi özlərinə şərəf bilir.

Ötən müddət ərzində hər şeydən öncə komandirlərin bilavasitə nəzarəti altında gənc əsgərlər sıra hazırlığı ilə məşğul olublar. Bundan əlavə onlar hərbi qanunvericilik və nizamnamələrin tələblərilə tanış ediliblər, hüquq saatlarında hərbi xidmət əleyhinə cinayətlər və bu cinayətlərə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyət barədə bilgi alıblar. Döyüş hazırlığı dərslərində gənclər əsgəri peşə ilə bağlı lazımi biliklər əldə etmiş, ictimai-siyasi hazırlıq dərslərində isə ölkəmizdə və regionumuzda baş verən hadisələr barədə məlumatlandırılmışlar.

Hər bir gənc hərbi andı qəbul etməklə özünün ən nəcib hisslərini, müstəqil Vətənimizə sonsuz məhəbbətini, düşmənə nifrətini ifadə etmiş olur. Hərbi and eyni zamanda hərbçilərin üzərinə məsul vəzifələr qoyur, bütün çətinliklərə sinə gərməkdə ona yardımçı olur, mənəvi ruh verir.

Andiçmə bitdikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

- Oğlum Rüfət orta məktəbi bitirdikdən sonra ali məktəbə daxil olmuşdu, - əsgər atası Adil Məmmədov bizimlə söhbətində bildirdi. - Allaha şükür, o, Azərbaycan Dövlət İqtisad Universitetində ali təhsilini uğurla başa vurdu, ölkəmiz üçün lazımlı bir ixtisasa yiyələndi. Ancaq təhsilini davam etdirməkdən öncə Vətənə əsgəri borcunu verməyi qərara aldı və onu hərbi xidmətə yola saldıq. İndi ailəlikcə Rüfətin andiçmə mərasiminə gəlmişik.

Əsgər Orxan Şirinov da ali təhsilini başa vurduqdan sonra hərbi xidmətə çağırılmış gənclərdəndir. O, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının məzunudur. Orxan hərbçilər nəslinin yetirməsidir. Babası Bulud Şirinov peşəkar artilleriyaçı olub və Azərbaycan Silahlı Qüvvələrində yüksək hərbi vəzifələrdə xidmət edib. Gənc əsgərin atası da ehtiyatda olan zabitdir. Orxanın andiçmə mərasiminə gəlmiş bibisi Lida xanım Şirinova da Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasında həkim işləyir.

**(Ardı 5-ci səhifədə)**

# Silahlı Qüvvələrimizin hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib

**(Əvvəli 4-cü səhifədə)**

- Bu gün çox sevincliyik, - Lida xanım bizimlə söhbətində bildirdi. - Orxan bu gün Vətənə sədaqət andı içdi. İnanırıq ki, valideynlərinin öyüd-nəsihətinə uyğun ləyaqətlə xidmət edəcək, hərbçi babasının xatirəsini daim uca tutacaq. Bütün əsgərlərimizə Azərbaycan Ordusuna layiq şərəfli xidmət arzulayıram.

Mərasim iştirakçıları çıxış edərək gənc əsgərlərə öz ürək sözlərini bildirdilər. Öncə söz alan zabit Qədir Nəsibov kollektivin gənc üzvlərini salamlayaraq onları andiçmə mərasimi münasibətilə təbrik etdi, gənc əsgərlərin şərəfli xidmətlərilə Vətənə və xalqımıza başucalığı gətirəcəklərinə, Azərbaycan əsgəri adını qürurla daşıyacaqlarına inandığını bildirdi.

Təntənəli surətdə Hərbi andı qəbul etməyin hər bir döyüşçünün həyatında unudulmaz məqam olduğunu qeyd edən gənc əsgər Emil Əliyev isə bildirdi ki, hərbi andı qəbul etməklə onlar üzərlərinə böyük vəzifə götürüblər və bu vəzifəni ləyaqətlə yerinə yetirəcəklər.

Tribunaya qalxan əsgər valideyni Məzi Şikarov gənc əsgərlərə öz öyüd və nəsihətini çatdırdı, Vətənə xidmət etməyin hər kəs üçün şərəf işi olduğunu söylədi, intizamlı olmağı, əsgəri peşələrin sirlərini layiqincə öyrənməyi tövsiyə etdi və onlara gələcək xidmətlərində müvəffəqiyyət arzuladı. Əsgər babası həmçinin dövlətimizin və Müdafiə Nazirliyinin rəhbərliyinə əsgərlər üçün belə gözəl şərait yaratdıqlarına görə öz minnətdarlığını bildirdi.



Şübhəsiz, intizamlı və dəqiq olmaq, hərb sənətini, silah və texnikanın sirlərini səylə öyrənmək hərbi andın başlıca tələblərindəndir. Bunlar ordu həyatında bütün uğurların əsasını təşkil edir. Doğrudan da, hərbi intizam mütəşəkkillik yaradır, ordunun gücünü artırır. Bu isə bütövlükdə Azərbaycan Silahlı Qüvvələrinin uğurları üçün zəmin yaradır. Övladlarının bayramına gəlmiş valideynlər üçün gənc əsgərlərin tribuna qarşısından təntənəli keçidi ən maraqlı və unudulmaz məqamlardan oldu. Məğrur yerişli, şux duruşlu Azərbaycan əsgərləri cərgələrdə mətin addımlarla addımlayaraq sanki qısa zamanda hərbi xidmətdə öyrəndiklərini valideynlərinə nümayiş etdirməyə çalışırdılar.

Doğrudan da, dünənə kimi uşaq hesab edilən oğullar hərbi xidmətə qədəm qoyduqları ilk günlərdən dəyişməyə başlayırlar. Və bu dəyişiklik təkcə onların geyimlərini əhatə etmir. Ordu sıralarında əsgərlərin yaşam tərzi başqalaşır. Ana qayğısından çıxmış gənclər hərbi hissədə sərbəstliyə, müstəqilliyə qədəm qoyur, hərbi məsuliyyətin nə demək olduğunu anlayırlar. Əbəs yerə Silahlı Qüvvələri həyat məktəbi adlandırmırlar ki.

Andiçmə mərasiminin sonunda valideynlərlə gənc əsgərlərin görüşü təşkil edildi.

* * *

"N" hərbi hissəsində keçirilən mərasimdə ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyulub və rituala uyğun olaraq döyüş bayrağı sıra meydanına gətirilərək Dövlət himni ifa edilib.

Hərbi and Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları üçün Vətən qarşısında dönməz sədaqətin ifadəsidir. Hətta ölüm təhlükəsi belə Azərbaycan əsgərini içdiyi andı pozmağa məcbur edə bilməz.

İctimaiyyət nümayəndələrinin və əsgər valideynlərinin iştirakı ilə baş tutan mərasimdə gənc əsgərlər silah qardaşlığı nümayiş etdirərək Vətənə sadiq qalacaqlarına and içiblər.

General-leytenant Rövşən Əkbərov qonaqları və əsgər valideynlərini salamlayaraq gənc əsgərləri əlamətdar gün münasibəti ilə təbrik edib və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrik məktubunu çatdırıb.

O qeyd edib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən daha da gücləndirilmiş müstəqil Azərbaycanın Silahlı Qüvvələrində Vətənə xidmət etməkdən şərəfli heç nə ola bilməz. Yalnız Vətəni sevməklə onu qorumaq mümkün deyil, bunun üçün peşəkarlıq da tələb olunur. Hər bir zabit, gizir və əsgər dövlətimiz qarşısında öz məsuliyyətini dərk edir, qarşıya qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirir.

Hərbi andı qəbul edən gənc əsgərlərə möhkəm cansağlığı, təlimlərdə, eyni zamanda döyüş hazırlığının artırılmasında uğurlar arzulayan general qeyd edib ki, onlar silah və texnikanın sirlərini dərindən mənimsəyəcək, ata-babalarımızın qəhrəmanlıq nümunələrindən bəhrələnərək döyüş qabiliyyətini daha da artıracaq, hər an torpaqlarımızın azad edilməsi naminə döyüşə hazır olacaqlar.



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "müstəqil Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət etmək hər bir azərbaycanlı üçün böyük iftixardır, hər bir Vətən oğlunun şərəfli borcudur. Fəxr etməlisiz ki, xalqımız sizə bu şərəfli vəzifəni etibar edibdir" sözlərini diqqətə çatdıran natiq bütün əsgər valideynlərinə vətənpərvər oğullar böyütdüklərinə görə təşəkkürünü bildirdi.

Gənc əsgərlər adından əsgər Mahir Səmədov şərəfli gün münasibəti ilə həm silahdaşlarını, həm də tədbir iştirakçılarını təbrik edərək deyib: "Vətənin şərəfini hər şeydən uca tutmalıyıq. Əsgəri xidmət çətindir, lakin şərəflidir. Biz xidmət müddətində Vətənə, xalqa millətə layiq olmalı, əbədiyaşar komandan Heydər Əliyev tərəfindən əsası qoyulan ordunun inkişafına öz töhfəmizi verməklə vətəndaşlıq borcumuzu yerinə yetirməliyik. Bu gün hər birimiz and içdik. İçdiyimiz anda sadiq, Vətənə layiq əsgər olacağımıza söz veririk."

Əsgər atası Fizuli Əliyev də sevincini tədbir iştirakçıları ilə bölüşüb. "Əsgərlər üçün burada nümunəvi şərait yaradılıb. Əminik ki, hərbi hissələrimizdə gözəl məişət şəraiti, təcrübəli zabit heyəti var. Bacarıqlı zabitlər xəzinə kimidir, nə qədər çox öyrənsəniz, haqq davasında düşməni diz çökdürəcək, qalib əsgər siz olacaqsınız."

Sonda ordu birliyinin tabeliyində olan hərbi hissələrə döyüş bayraqları təqdim olundu. Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatdı.

* * *

Silahlı Qüvvələrimizin tərkibində mühüm yer tutan "N" hərbi hissəsində də gənc əsgərlərin andiçmə mərasimi özünəxas təntənə ilə yaddaşlarda qalacaq.

Bu günü illərlə gözləyən, övladlarını layiqincə böyüdüb boya-başa çatdırmış valideynlər, həmçinin ictimaiyyət nümayəndələri nəzarət-buraxılış məntəqəsinin qarşısına toplaşmışdılar.

Bir azdan onları hərbi hissənin bayramsayağı bəzədilmiş meydanına dəvət edirlər. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu hərbi hissənin şərəfli döyüş ənənəsi vardır, burada xidmət etmiş yüzlərlə döyüşçü Vətənimizin azadlığı uğrunda mübarizədə fədakarlıq göstərib. Onların əksəriyyəti yüksək dövlət mükafatlarına layiq görülüblər, həmçinin hərbi hissənin yetirməsi olan onlarla zabit bu gün də müxtəlif hərbi bölmələrdə öz xidmətlərini şərəflə davam etdirir və ölkənin ordu quruculuğuna dəyərli töhfə verir.



Şəxsi heyətin andiçmə mərasiminə düzülməsi barədə raportu qəbul edən general-mayor Xəqani Cəbrayılov gənc əsgərləri və onların doğmalarını əlamətdar hadisə münasibətilə təbrik etdi.

Gənc əsgərlər hərbi andı qəbul etdikdən sonra təntənəli mərasimdə valideynlər, zabitlər və gənc əsgərlər çıxış etdilər.

Polkovnik-leytenant Rasim Manafov çıxışında bildirdi ki, ümummilli liderimizin rəhbərliyi altında formalaşmış Azərbaycan Silahlı Qüvvələri müasir dövrdə yeni inkişaf mərhələsindədir. "Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin yüksək diqqət və qayğısının nəticəsidir ki, son illər Silahlı Qüvvələrimiz daha da möhkəmlənib və regionun ən qüdrətli ordusuna çevrilib. Aprelin əvvəlində düşmən təxribatının qarşısının alınmasında ordumuzun şəxsi heyətinin göstərdiyi böyük rəşadət bir daha sübut etdi ki, Azərbaycanın hərbi qüdrəti işğalçı dövlətdən xeyli üstündür və ölkəmiz istənilən təxribatın qarşısını almağa tam qadirdir".

Zabit çıxışına davam edərək qeyd etdi ki, hərbi hissənin şəxsi heyəti müharibə illərində torpaqlarımızın işğalçılardan qorunması uğrunda mübarizəyə öz töhfəsini verib. "İnanıram ki, bu gün Vətənə sədaqət andı içərək sıralarımıza qoşulan gənclər də hərbi hissəmizin şərəfli döyüş yolundan nümunə götürərək torpaqlarımızın işğaldan azad edilməsində öz qüvvələrini əsirgəməyəcəklər".

Sonra valideynlər və ictimaiyyət nümayəndələri adından Bakı Dövlət Universitetinin professoru Zahid Cəfərov, əsgər anası Nisə Manafova və başqaları gənc əsgərləri təbrik etdilər və onlara hərbi xidmətdə uğurlar arzuladılar. Çıxışçılar ölkə rəhbərliyinin ordu quruculuğuna göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirərək hərbi hissələrdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən danışdılar və əsgərlərin nümunəvi xidməti üçün bütün imkanların yaradıldığını qeyd etdilər.

Gənc əsgər Ceyhun Nəsirov isə silahdaşları adından söz verdi ki, onlar dövlətin və xalqın orduya olan inamını doğrultmaq üçün məsuliyyətlə xidmət edəcək, hərbi tapşırıqların öhdəsindən bacarıqla gələcəklər.

Sonda valideynlər əsgər yataqxanasına və digər məişət sahələrinə baxdılar, övladlarının xidməti üçün yaradılmış yüksək şəraitdən razılıqlarını bildirdilər.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan tankçıları hərbçilərin beynəlxalq yarışlarında uğurla çıxış ediblər

***Rusiya Federasiyasında keçirilən "Beynəlxalq Ordu Oyunları - 2016" yarışlarının "Tank biatlonu" müsabiqəsində iştirak edən Azərbaycan tank heyətləri uğurlu nəticə əldə ediblər.***



17 ölkədən 54 tank heyətinin yarışdığı beynəlxalq hərbi turnirdə tankçılarımız ümumi nəticədə yeddinci yerə, ən yaxşı heyət siyahısında reytingə görə sıralamada isə beşinci yerə layiq görülüblər.

"Tank biatlonu" müsabiqəsində ilk dəfə iştirak edən Azərbaycan tankçıları müxtəlif tapşırıqları yüksək səviyyədə icra edərək hədəfləri ustalıqla məhv edib, maneələri bacarıqla keçərək yüksək idarəçilik qabiliyyəti nümayiş etdiriblər.

Qeyd edək ki, müsabiqəyə öz tankları ilə qatılan komandalardan fərqli olaraq, hərbçilərimiz püşkatma yolu ilə onlara düşən tanklarda çıxış etmələrinə baxmayaraq ayrı-ayrı mərhələlərdə qaliblər sırasında olublar.




Ümumi nəticədə Ermənistan komandasını geridə qoyan tankçılarımızın peşəkarlığı, bacarığı yarışların münsiflər heyəti, hakimlər, eləcə də mütəxəssislər və müxtəlif ekspertlər tərəfindən yüksək qiymətləndirilib.

Qeyd edək ki, iyulun 30-dan başlayan müsabiqə Rusiya, Belarus, Qazaxıstan və Çin tank heyətlərinin iştirakı ilə avqustun 13-də final mərhələsi ilə sona çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Dağ çayı

## (esse)

*Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun xatirəsinə*

Hamı gürşad gözləyirdi. Hamının umacaqlı baxışları bir yağış ümidiylə göylərə dikilmişdi. Nə müddətdi havalar könül küsdürürdü. Çəmənlərin otları saralırdı, gülüçiçəyi solurdu, bulaqların, çeşmələrin səsi kallaşırdı. Ümid vardı insanlarda. Hamı inanırdı ki, yağış yağacaq, rəngi durulan çəmənlərdə yenə "gül gülü çağıracaq, bülbül bülbülü". İnam vardı insanlarda. İnsanlar inanırdı ki, göylər yağışını əsirgəməyəcək, "əl çənədə, dirsək dizdə" qalmayacaq. Ağ yağış yağacaq, sellər-sular torpağı gərəksizlərdən təmizləyəcək, yağışdan sonra göy üzündə gözaydınlığı kimi göyqurşağı görünəcək. Hamının üzü güləcək, ocağında közü güləcək, dodağında sözü güləcək. Şəhidlərimizin yerlərdən narahat ruhlarının eyni açılacaq. Apreldə Lələtəpədə yağan yağışdan sonra torpaq da bu biçim ovqat yaşamışdı, insanlar da. Bu ovqatı görüncə - "Vətən üçün doğulmuşuq, Vətən üçün ölməliyik" deyənlərin ruhu indi "Bu yağış yağmalıydı!" - deyəcək...

Ağ yağış yağacaq...

Dağ çayı kükrəyəcək, coşacaq, məcrasına sığmayacaq. Yöndəmsiz kötükləri qabaqlayıb bu həndəvərlərdən uzaqlaşdıracaq, dirəşən daşları tərpədəcək, dümsükləyib yerindən oynadacaq. Qayibanə səs eşidəcəm:

...ya daşı,
Ya kəsəyi, ya daşı.
Sellər qoymaz bərkiyə
Bu yerlərdə yad daşı!..

İsgəndərin, İsgəndərlərin ruhunun səsi biləcəm bu səsi...

Dağ çayı kükrəyəcək...

Hamımız bu kükrəyişin həsrətindəyik...

**Rəşid HÜSEYNOV,
"Azərbaycan Ordusu"**

# "Xəzər kuboku - 2016" müsabiqəsində hərbi dənizçilərimiz mükafatlandırılıb

***Azərbaycan hərbi dənizçilərinin də iştirak etdiyi "Beynəlxalq Ordu Oyunları - 2016" yarışları çərçivəsində keçirilən "Xəzər kuboku - 2016" müsabiqəsinə yekun vurulub.***



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mükafatlandırma mərasimində Azərbaycan Hərbi Dəniz Qüvvələri komandanının müavini 1-ci dərəcəli kapitan Sübhan Bəkirov, Rusiya Federasiyası Xəzər Donanmasının komandanı kontr-admiral Sergey Pinçuk və Dağıstan Muxtar Respublikasının rəsmi nümayəndələri iştirak ediblər.

G-124 gözətçi gəmisinin zabiti baş leytenant İsrail Məmmədov nümayiş etdirdiyi bacarıq və peşəkarlığa görə fərdi mükafata layiq görülüb.

"Xəzər kuboku - 2016" müsabiqəsində ümumi nəticələrin bal hesabına uyğun olaraq komandamız ikinci yerə layiq görülərək xüsusi medalla təltif edilib.

# Sürücü diqqətli və səriştəli olmalıdır

Vətən keşikçilərinin görüşünə tələsirik. Çətin keçilən enişli-yoxuşlu dağ yolları ilə hərəkət edirik. Sürücümüz çavuş Akif Məmmədovdur. Akifin maraqlı həyat yolu diqqətimizi çəkir.

Akif əslən Gədəbəy rayonundandı. Ömrünün böyük hissəsini bu dağ yollarında keçirib. Orta məktəbi bitirdikdən sonra ön xətdə yerləşən hərbi hissələrdən birində müddətli hərbi xidmətə başlayıb. Nizam-intizamı, bacarığı fəxri fərmanlarla qiymətləndirilib. Gözəl avazı olan Akif hərbi xidməti başa vursa da, orduyla əlaqəsini kəsmir. Yaşadığı əraziyə yaxın hərbi hissələrdə bayram günləri əsgərlərin qonağı olur. Və bir gün musiqi karyerasını bir kənara qoyaraq yenidən ordu sıralarına qatılmağı qərara alır. Artıq 1 il 6 aya ayxındır ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətdədir.

...Gözləri yol çəkir. Sanki nəyisə xatırlayır. Və xoş avazı ilə Sabir Mirzəyevin "Bu qala daşlı qala" mahnısını oxuyur:



Dağlara çən düşəndə
Qəlbimə qəm düşəndə
Ruhum bədəndən oynar
Yadıma sən düşəndə.

Bu qala daşlı qala
Çınqıllı daşlı qala
Qorxuram yar gəlməyə
Gözlərim yaşlı qala.

- Getdiyimiz hər döyüş postu dağların zirvəsində düşmənin canına qorxu salan bir qaladır, - deyir. - Hər dəfə bu zirvələrə qalxanda bu mahnını oxuyuram, sanki rahatlıq tapıram. Gördüyünüz bu dağların ətəyində böyümüşəm. Hər qarışında izim, bir xatirəm var. Döyüş postlarına gedən rahat və qısa yolları yaxşı tanıyıram.

Təhlükəli və sərt döngələri olan dağ yollarında avtomobili belə məharətlə idarə etməsi onun təcrübəli olduğuna sübutdur. Təcrübəli sürücü deyir ki, ani bir səhv bədbəxt hadisəyə gətirib çıxara bilər. Buna görə də olduqca diqqətli və səriştəli olmalısan.

Dolanbac yollar bir birini əvəz edir. Zirvələrə doğru qalxırıq. Hər qarışda, hər addımda güclü orduya malik olduğumuz bir daha təsdiqlənir, insanın ruhuna sakitlik çökür.

**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

# Jurnalistlərin təlimi

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun kütləvi informasiya vasitələri nümayəndələrinin cəbhəboyu zonada fəaliyyətinin tənzimlənməsi üzrə təsdiq etdiyi tədbirlər planına uyğun olaraq keçirilən jurnalistlərin poliqon təlimləri artıq başa çatıb.*




Tədbirin vacibliyi nəzərə alınaraq keçirilən təlimlərə Silahlı Qüvvələrin ön xətdə yerləşən bölmələrinin bir qrup şəxsi heyəti də cəlb edilmişdi. Peşəkar zabit heyəti jurnalistlərə ekstremal şəraitdə fəaliyyət göstərməyin sirlərini aşıladı. Qeyd edək ki, qəzetimizin əvvəlki saylarından birində "Ekstremal jurnalistlərə təcrübə poliqonu təlimlərinin öyrədilməsi" layihəsinin məqsədi, əhəmiyyəti və mahiyyəti barədə geniş yazı dərc edilib. Sadəcə xatırlatmaq istəyirəm ki, tədbirin təşkili dövlət başçımızın 24 sentyabr 2014-cü ildə imzaladığı cəbhəyanı zonada bəzi təhlükəsizlik tədbirləri barədə sərəncamından irəli gələn tələblər əsasında reallaşdırılıb. Layihə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı və Müdafiə Nazirliyinin birgə dəstəyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzi tərəfindən həyata keçirilir. Hər birində 20 nəfər olmaqla 40 nəfərə yaxın repartyor, operator, müxbir və jurnalistika fakültəsinin bir qrup fərqlənən tələbəsinin 2 mərhələdə cəbhə zonasında təcrübə poliqonlarında təlimi nəzərdə tutulmuşdu...



Qeyd edək ki, birinci təlim dəstəsi 24-30 iyul tarixlərində təcrübə poliqonunda çalışmalarını bitirib.

2-ci təlim dəstəsi isə avqustun 7-də cəbhə bölgəsinə yola düşdü. Burada polkovnik-leytenant Rasim Manafov əvvəlcə təlimçi jurnalistlərə təhlükəsizlik qaydalarına ciddi əməl edilməsinin vacibliyini vurğulayaraq, onları təlimatlandırdı. Sonra media nümayəndələri bölgənin relyefi ilə yaxından tanış olub ordu həyatının ilkin vərdişlərini öyrənməyə çalışdılar. Onlar müasir əsgər yeməkxanasında axşam yeməyinə qonaq edildilər. Daha sonra təlim iştirakçıları "xidmət" yerinə - ön xətdəki diviziona yollandılar... Beləcə təlimçilərin ilk xidmət günü başladı...

Səhər saat 5:00-da "Qalx!" komandası verilir. Təlimçilər şəxsi heyətlə birlikdə günün nizam qaydalarına uyğun olaraq hərəkət edirlər: fiziki hazırlıq, sıra hazırlığı və səhər yeməyi. Qarşıda təlim iştirakçılarını ağır sınaqlar gözləyir. Ekstremal şəraitin çətinliklərini asanlıqla dəf etməyin yollarını ordumuzun peşəkar zabitləri həm nəzəri, həm də təcrübi olaraq təlimçilərə öyrədəcək. İlk olaraq media nümayəndələri "Hərbi rejim" anlayışı haqqında məlumat almaq, "xidmət" etdikləri hərbi hissənin təlim və döyüş fəaliyyəti ilə yaxından tanış olmaq üçün taktiki sinif otağına toplaşırlar. Onlara bütün bu bilgiləri hərbi hissənin zabiti Murad Muradov çatdırır.

Layihənin rəhbəri, "Dinc Dünya" Araşdırma Mərkəzi idarə heyətinin sədri Əlisəfa Mehdiyev təlimçiləri hərbi xidmət prosesində qarşılıqlı münasibətlərin tənzimlənməsi barədə məlumatlandırır. Bir "taqımda" birləşdirilən jurnalsitlər "manqalara" bölünür və avtobus təlim poliqonuna yola düşür.

Keçirilən təlimdə jurnalistlərin döyüş gedən ərazidə müşahidə və çəkiliş mövqelərini düzgün seçmələri, xüsusilə təhlükəsizlik qaydalarına diqqət yetirmələri, döyüşçülərə mane olmadan fəaliyyət göstərmələri və digər davranış qaydaları haqqında məlumatlar çatdırıldı. Həmçinin təlimçi media nümayəndələri "taqım hücumda", "manqa müdafiədə" və digər döyüş vərdişlərini mənimsədilər. Artıq şəxsi heyət nahar etmək üçün düzülüb. Budur, təlimçi jurnalistlər də hərbi hissənin əsgər və zabitləri ilə birlikdə yeməkxanada nahar edirlər.

Beləliklə, jurnalistlərin artilleriya mövqelərində fəaliyyəti başlayır. Top heyətlərinin döyüş fəaliyyətinə maneə törətmədən bölmələrin seçilməsi, heyət nəfəri rolunda qurğunu "döyüşə" və "səfərə" gətirmə halları nümayiş olunur. Hərbi hissənin zabiti Zinhar Bayramov "əməliyyat"ı idarə edir və bu zaman təlim iştirakçılarının təhlükəsizliyinə ciddi önəm verilir. Nəticədə ekstremal şəraitdə medianın fəaliyyəti uğurlu alınır.

"Taqım"ın şam yeməyindən sonra asudə vaxtı təşkil edilir. "Şəxsi heyət" hərbi hissənin yerləşdiyi ərazidə tarixi yerlərə baş çəkir.

Təlimin 3-cü günü gizir Vahid Abdullayev jurnalistlərə "Dövlət sirri haqqında Qanun"a əsasən, xidmət prosesində hərbi hissədə məxfiliyin qorunması barədə geniş məlumat verir. Sonra şəxsi heyət yenidən təlim yerinə çıxır. Əvvəlcə atış çalışmasını yerinə yetirmək üçün hazırlıq prosesi başlayır: Atıcı silahların taktiki-texniki xüsusiyyətləri ilə tanışlıqdan sonra avtomatdan atış çalışmaları yerinə yetirilir...

Ekstremal şəraitdə fəaliyyət göstərən KİV nümayəndələri üçün vacib sayılan səngərdə davranma, fortifikiasiya qurğularından istifadə, döyüşçülərlə qarşılıqlı münasibətlərin tənzimlənməsi və s. qaydalar haqqında təlim qrupuna geniş məlumat verilir. Müzakirələr zamanı vacib amillərə diqqət yetirilir. Jurnalistlərin informasiya toplayarkən tərəfsizliyə riayət etmələri, dövlət maraqlarının və hərbi sirlərin qorunmasına əməl etmələri xüsusi vurğulanır.



Avqustun 10-u səhər erkən "taqım" yenidən təlim mərkəzinə çıxır. Burada baş leytenant Elnur Həsənov kəşfiyyat bölmələrinin fəaliyyət prinsipləri barədə danışır.



Təlim mühəndis-istehkam maneələrinin qurulması və dəf edilməsi üsullarının nümayişi ilə davam edir. Məşğələni aparan zabit Behbud Əhmədov maneələr haqqında ətraflı məlumat çatdırır.

Burada nümayiş olunan maneələr zolağı düşmənin hücumunu ləngitmək üçün nəzərdə tutulub. Ekstremal şəraitdə çalışan media nümayəndələrinə maskalanma, minalardan qorunma üsulları və digər qaydalar praktik olaraq göstərilir.

Təlimçilər cəbhəyanı yaşayış məntəqələrinə yola düşürlər. Yaxşı bilirik ki, cəbhə xəbərlərinin cəmiyyətə hansı səviyyədə çatdırılması ön xəttə yaxın kəndlərdə yaşayan əhalinin fəaliyyətindən də asılıdır. Qeyd edək ki, 2014-cü il avqust hadisələrində cəbhəyanı ərazilərdən yayılan xəbərlər cəmiyyətdə arzuolunmaz hallar doğurmuşdu. Yerli əhali ilə təmas yaratmaqda əsas məqsəd də cəmiyyətə yalnız doğru məlumatların ötürülməsidir. Kəndlərin düşmənlə çox yaxın məsafədə yerləşdiyini deyən kənd sakini Azər Nağıyev 2004-cü ilin oktyabrın 18-də axşamüstü işdən evə qayıdarkən ermənilərin açdığı atəş nəticəsində yaralandığını və əlil olduğunu söyləyir. "Kəndimiz illərdir erməni quldur dəstələrinin hücumlarına məruz qalır. Əhalinin otlaq sahələri, əkin-biçinləri, evləri atəşə tutulur, dinc sakinlər öldürülür. Lakin insanlar çətin, təhlükəli şəraitdə yaşamalarına baxmayaraq, evlərini bir gün belə tərk etməyiblər. Belə şəraitdə gənclərimiz təhsil alır və ali məktəblərə qəbul olunurlar. Oğlum Nofəl keçən il yüksək nəticə göstərərək Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər fakültəsinə qəbul olundu. Bir sözlə, insanlar, ordumuzun gücünə, peşəkarlığına güvənərək əmin-arxayın yaşayırlar."

Təlimçilər cəbhə zonasında yaşayan əhali ilə söhbətləşdikdən sonra "xidmət" yerinə - diviziona qayıdırlar.

Təkrar qeyd etmək istərdim ki, sözügedən layihənin həyata keçirilməsində Müdafiə Nazirliyinin dəstəyi hər addımda hiss olunurdu.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Eradan əvvəl VIII-VII əsrlər üçün səciyyəvi olan küplər aşkarlanıb

***Ağcabədi rayonunun Minəxorlu kəndi yaxınlığında - Qarqarçayın yatağında eradan əvvəl VIII-VII əsrlər üçün səciyyəvi olan küplər aşkar edilib.***

AZƏRTAC xəbər verir ki, mədəniyyət nümunələrini çayın yaxınlığında təsərrüfat işləri ilə məşğul olan Minəxorlu kənd sakinləri tapıblar. Sakinlər bu barədə kənd icra nümayəndəliyinə və Ağcabədi rayon Mədəniyyət və Turizm Şöbəsinə məlumat veriblər. Daha sonra Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun bölgədə tədqiqat aparan mütəxəssisləri bu barədə məlumatlandırılıblar.

Çay yatağında tədqiqat aparan AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, Mil-Qarabağ ekspedisiyasının Qalatəpə dəstəsinin rəhbəri Təvəkkül Əliyev AZƏRTAC-a bildirib ki, tapılan küplər bir-birindən 100-120 metr aralı, iki qrup halındadır. Hər qrupda yan-yana bir ox boyunca düzülmüş üç küp var. Burada kənarlarına iri çay daşları qoyulmuş ocaq yeri də diqqəti cəlb edir. Onun içərisi təmizlənərkən sarı gilli torpaqda kömür qalıqlarına, saxsı qırıntılarına və sümük parçalarına təsadüf olunub.

Küplərdən dördü təmizlənərək tam açılıb. Bad üsulu ilə düzəldilən və müxtəlif ölçüdə olan bu küplər torpağa dik basdırılıb, kənarları gəc məhlulu ilə suvanıb. Onların yuxarı hissəsi dağılıb, bəzilərinin enli köbəli və kənarları kəndirvari naxışlı ağız hissələri içərisinə tökülüb. Küplərin mövcud hündürlüyü 0,8 metrə yaxındır. Gövdə hissədə diametrləri 0,9-1,1 metrdir. Yalnız 1 küpün gövdəsində üfüqi çubuqvari qulpu olan saxsı qaba rast gəlinib. Bütövlükdə isə küplərin ətrafında və içərisinə dolmuş torpaqda Erkən Dəmir dövrünün son mərhələsi - eradan əvvəl VIII-VII əsrlər üçün səciyyəvi olan xeyli nazik divarlı, qara cilalı, çərtmə naxışlı, bardaq tipli qab qırıqlarına təsadüf olunub.



"İlkin araşdırmalar Qarqarçay hövzəsində açılan küplərin də həmin dövrə aidliyini və maye (su və ya şərab) saxlanılan anbarın bir hissəsi olduğunu göstərir. Görünür, istiqamətini dəyişən Qarqarçay bu anbarın yerləşdiyi sahədən keçərək onu öz yatağının bir hissəsinə çevirib. Anbarın yaxınlığında - Qarqarçayın sol sahilində yerləşən və bəhs olunan dövrə aid zəngin yerüstü materialları olan Qurdlutəpə yaşayış məskəni ilə bağlılığı ehtimal etmək olar. Azərbaycan tarixinin nisbətən zəif öyrənilmiş dövrünə aid bu abidələrin tədqiqi maraq doğuran yeni nəticələr verə bilər", - deyə arxeoloq bildirib.

Təvəkkül Əliyev qeyd edib ki, Qarqarçay hövzəsi Azərbaycan tarixinin müxtəlif dövrlərini özündə əks etdirən arxeoloji abidələrlə zəngindir. Hələ XIX əsrin sonlarından bu abidələr tədqiqatçıların diqqətini cəlb edir. Çayın Qarabağın həm dağlıq, həm də aran hissəsinə düşən sahillərində Tunc və Erkən Dəmir dövrünə aid kurqana, daş qutu tipli qəbirlərə, Antik və Orta əsrlərə aid nekropol və yaşayış yerlərinə tez-tez rast gəlinir. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Mil-Qarabağ arxeoloji ekspedisiyasının Qalatəpə dəstəsi artıq on ilə yaxındır Qarqarçayın sağ sahilində yerləşən qədim alban şəhər məskənində və onun yaxınlığındakı küp qəbirləri nekropolunda qazıntılar aparır. Dəstə, eyni zamanda, ətraf ərazilərdə kəşfiyyat-axtarış işlərini də həyata keçirir, təsərrüfat işləri zamanı aşkara çıxarılan yeni abidələri qeydə alıb sənədləşdirir.

# Hərbi yeniliklər, ənənələr



## Su-35 qırıcısı

Su-35 qırıcısı modernləşdirilmiş, yüksək manevrli, çoxfunksiyalı qırıcıdır. Onun hazırlanmasında beşinci nəslin texnologiyasından istifadə edilib. Bu da təyyarənin analoji qırıcılar üzərində üstünlüyünü təmin edir. Rusiya istehsallı qırıcı "klassik qırıcı"ların apara bilmədiyi şəraitdə uçuşu həyata keçirə və döyüşü apara bilir.

2007-ci ildə Su-35 qırıcısının ilk nümunəsi nümayiş etdirilib, 2008-ci ilin yanvarında "Saturn" müəssisəsində quraşdırılmaq üçün beş ədəd "117C" mühərrikinin uğurlu sınağı həyata keçirilib.

Su-35 qırıcısının quraşdırılması zamanı füzelyajın, qanadların, quyruğun və şassinin bütün elementlərində bir sıra dəyişikliklər edilib və gücləndirilib, bu da maşının maksimal uçuş çəkisinin artmasına, yanacaq ehtiyatının artırılmasına imkan verir. Bundan başqa qırıcı havada yanacaq doldurma sistemi ilə də təchiz edilib. Təyyarə hər biri 2000 litr həcmində asma yanacaq çənlərindən də istifadə edə bilər.

Optik-lokasiya sistemi yerüstü hədəflərə atəş açmaq üçün əvvəlcə onları işıqlandırır və lazer başlıqlı, özütuşlanan, idarəolunan raketləri ona tərəf istiqamətləndirir. Qırıcı informasiya-idarəetmə kabinəsi ilə də təchiz edilib. Silahlanmanın idarəetmə sisteminə gəldikdə isə Su-35 idarəolunan və idarə olunmayan aviasiya döyüş sursatlarından istifadə etməyə imkan verir. Xüsusiyyətlərinə gəldikdə isə təyyarənin heyəti bir nəfərdən ibarətdir. Qanadlarının ölçüsü 14,75 metr, uzunluğu 21,95 metr, hündürlüyü 5,92 metr, tavanın hündürlüyü 18000 m, təyyarənin boş halda çəkisi 19000, maksimal sürəti saatda 2500 kilometr təşkil edir.



## Pulemyot tapança

Bu silah Tula şəhərinin cihazqayırma konstruktor bürosunda hazırlanıb. Silahdan hərbi qulluqçular özünümüdafiə, həm də xüsusi əməliyyat qüvvələri üçün yaxın döyüş silahı qismində istifadə etmək nəzərdə tutulub. PP-2000 pülemyot-tapançasından həm orduda, həm də polis orqanlarında şəhərdə əməliyyatlar zamanı istifadə etmək olar.

Silah yüngül çəkili, minimal sayda detallardan ibarətdir və çox sadə qurğuya malikdir. PP-2000 silahında 9 mm-li güllələrindən istifadə edilməsi zirehli jiletlə mühafizə olunmamış hədəflərə qarşı effektli atəşi təmin edir. Hazırda PP-2000 silahı kütləvi istehsal edilir və silahlanmaya qədul edilir.

PP-2000 pulemyot-tapançası çaxmağın sərbəst mexanizmi əsasında qurulub. Zərbə-buraxıcı mexanizmi çaxmaqlıdır. Onun qoruyucu mexanizmi silahın sol tərəfində tutacağın üstündə yerləşdirilib. Bu da atəşin tək-tək və növbə ilə aparılmasını təmin edir. Silahın fərqli cəhəti ondadır ki, patentlə qorunur. Onun korpusunun arxa hissəsində ehtiyat darağı üçün yuva qurulub.

Silahın çəkisi 1,4 kiloqram, uzunluğu (yığılan-açılan qundaqla): 340-582 mm-dir. Atəş tempi dəqiqədə 600 atışdır. Darağı 20 və ya 30 patron tutur.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# "Rio-2016" Yay Olimpiya Oyunları




## Güləşçimiz Sabah Şəriəti bürünc medal qazanıb



Rio-de-Janeyroda təşkil olunan XXXI Yay Olimpiya Oyunlarının yunan-Roma güləşi yarışlarında 130 kiloqram çəki dərəcəsində çıxış edən Azərbaycan güləşçisi Sabah Şəriəti bürünc medal qazanıb.

Mübarizəyə səkkizdəbir final mərhələsindən qoşulan Sabah Şəriəti ilk görüşündə ABŞ idmançısı David Timoti Robert Smitdən üstün olub. Dörddəbir final mərhələsində isə güləşçimiz dünya və Avropa çempionu, "Bakı-2015" ilk Avropa Oyunlarının qalibi, "London-2012"nin bürünc mükafatçısı türkiyəli Rza Kayaalpa məğlub olub. Rəqibin finala yüksəlməsi güləşçimizə təsəlliverici görüşlərə qatılmaq imkanı verib. Belə ki, Sabah Şəriəti Venesuela idmançısı Ervin Coz Karaballo Kabreraya qalib gələrək bürünc medal uğrunda güləşməyə nail olub. Almaniya idmançısı Eduard Poppa da qalib gələn Sabah Şəriəti "Rio-2016"nın bürünc medalına sahib olub və Azərbaycana üçüncü medalı qazandırıb.

## Kamran Şahsuvarlı ən azı bürünc medalını təmin edib



"Rio-2016" Olimpiya Oyunlarının boks yarışlarında Kamran Şahsuvarlı (75 kq) yarımfinal mərhələsinə adlayıb.

Əvvəlki iki görüşündə Zao Minqqanq (Çin) və Artyom Çebotaryovu (Rusiya) mübarizədən kənarlaşdıran boksçumuz dörddəbir finalda qazaxıstanlı boksçu - dünya çempionu Janibek Alimxanlı ilə üz-üzə gəlib. Döyüşdə rəqibinə 2:1 hesabı ilə qalib gələn K.Şahsuvarlı yarımfinal mərhələsinə adlamaqla ən azı bürünc medalı təmin edib.

## Elvin Məmişzadə dörddəbir final mərhələsinə yüksəlib



Avqustun 15-də "Rio-2016" Yay Olimpiya Oyunlarında Azərbaycan boksçusu Elvin Məmişzadə (52 kq) birinci görüşünə çıxıb.

Səkkizdəbir final mərhələsində qazaxıstanlı Oljas Sattıbayevlə qarşılaşan dünya çempionu, birinci Avropa Oyunlarını qalibi, qitə çempionatlarının mükafatçısı Elvin Məmişzadə rəqibini hər üç raundda məğlub edərək növbəti mərhələyə yüksəlib.

## Azərbaycan boksçusu Lorenzo Sotomayor dörddəbir final mərhələsinə vəsiqə qazanıb



"Rio-2016" Yay Olimpiya Oyunlarında Avropa Oyunlarının qalibi, Azərbaycan boksçusu Lorenzo Sotomayor (64) "Rio-2016"da ikinci görüşünə çıxıb.

Boksçumuz səkkizdəbir final mərhələsində fransalı idmançı Hassan Amzil ilə qarşılaşıb. Fransalı rəqibini məğlub edən Lorenzo Sotomayor dörddəbir final mərhələsinə vəsiqə qazanıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 460
Nüsxə 4650